Mahir rəqqaslardan biri- Əvəz Qasımov



Ömrün ixtiyar çağını yaşayan və orta yaş dövrünü addımlayan bütün mlli rəqs sənətçiləri onu xatırlayır, bacarıqlı, hünərli, maraqlı rəqqas olmasından, solo ifalarından söhbət açırlar.

Əvəz Əli oğlu Qasımov 1945-ci il dekabr ayının 9-da Ağdamda dünyaya gəlib. Ailə 1959-cu ildə Bakıya köçüb. Əvəz Ağdamda 1 saylı ümumtəhsil məktəbin VII sinfi bitirib. O, Ağdam musiqi məktəbinin tar sinfində oxuduğu üçün orada dayısıgildə qalıb və təhsili başa vurduqdan sonra Bakıya gəlib. Əvəzin atası Əli hüquqçu olsa da, musiqiyə çox xiridar idi, yaxşı tar çalırdı. Buna həvəskar kimi yanaşırdı. Əvəzin babası Ələsgər Qara-bağda tacir kimi çox tanınırdı. O da musiqiyə, muğamlara bağlı olaraq, həvəskar kimi tar ifa edirdi. Ələsgər kişi dünyasını dəyişəndən sonra ondan yadigar, ən yaxşı usta əlindən çıxan yüksək keyfiyyətli üç ədəd tar da qalmışdı. Nəslin tar çalmaq ənənəsi Əvəzlə davam edirdi.

Əvəzin qardaşı, məşhur rəqqas, pedaqoq, Bakı Xoreoqrafiya Akademiyasının baş müəllimi, xalq artisti Yusif Qasımovun fikirlərindən: "Əvəz evdə tar çalıb məşq edərkən, verilən tapşırıqları yerinə yetirərkən, babamdan qalan tarlardan birini də mən götürüb ona yaxın əyləşir, əlinə baxaraq çalmağı öyrənirdim. Bir müddətdən sonra muğamlara da bələd oldum. Rəqs aləmində tanınanda, sərbəst olaraq rəqslərə quruluş verəndə, musiqiyə, muğamlara az-çox bələd olmağım karıma gəldi. Hansı muğam üzərində və ya muğamın hansı şöbəsi üzərində olan musiqi nümunəsindən hansı rəqsdə istifadə etməyin daha uyğun olması mənə aydın oldu və bunlardan yerli yerində istifadə etdim. Əvəzin tar dərsi alması mənə də gərək oldu...".

Ə.Qasımov 1962-1966-cı illərdə Politexnik Texnikumda təhsil alıb. Həmin illərdə bu tədris ocağında Qorxmaz Qurbanov və Nailə Mahmudovanın yaratdığı özfəaliyyət rəqs ansamblının fəal üzvü olan Əvəz burada sənət qaydalarına yiyələnərək rəqqas kimi yetişib. Bu bacarıqlı, enerjili gənci diqqətdə saxlayan N.Mahmudova və Q.Qurbanov Əvəzi Dövlət Mahnı və Rəqs Ansamblına gətiriblər. Ə.Qasımov tam peşəkar rəqqas kimi tanınaraq və layiqli fəaliyyət göstərərək bu kollektivdə 1966-cı ildə 1 il çalışıb. Sonra Estrada Orkestrinə solist dəvət olunaraq orada 9 il fəaliyyət göstərib. Burada bütün rəqslərin aparıcı qüvvəsi olub. Ə.Qasımov 1975-ci ildə yenidən Mahnı və Rəqs Ansamblına qayıdıb, 1991-ci il pensiyaya çıxana qədər burada solist olub və nümunəvi sənət nümayiş etdirib. O, 20 il milli rəqs sənətinə xidmət edib. Əvəz istər kütləvi, istərsə də duet rəqslərdə daim tələb olunan səviyyəni nümayiş etdirmiş, hər bir hərəkəti düzgün, inandırıcı və emosional icra etmişdir. İfa zamanı onun hissiyyatı daim cəlbedici və güclü olmuşdur. Fırlanmalar, barmaq üstündə cətin hərəkətlər onun ifasında daim yaxşı alınmışdır. "Azərbaycan suitası"nda, "Bulaq başında" rəqs quruluşunda o, solist olaraq Aliyə Ramazanova, Zemfira Camalova ilə tərəf-müqabil olmuşdur. "Cobanlar"da, "Qayta-ğı"da, Əvəz o qədər məharət göstərirdi ki...

Yusif Qasımovun xatirələrindən: "Rəqsə o qədər həvəsimiz vardı ki... Yaşadığımız mənzil Sovetskidə, Şorsda idi. Sonra Bəşir Səfəroğlu küçəsi adlandırıldı. Həmin məhəllədə dalan var idi. Yay aylarında bərk istilər olduğu üçün məhəllənin əksər

adamları damların üstündə yatırdılar. 1962-1963-cü illərdə Əvəz və mən rəqslə məşğul olan başqa uşaqlarla birlikdə məhəllə camaatına "gecə konserti" verirdik. Maqnitofonu qoşub oradakı musiqiyə rəqs edirdik. Dalanda rəqslərimizin tamaşaçıları məhəllə camaatı olurdu. Damların üstündə dincələnlər, dalana toplaşanlar tamaşaçı olub bizi alqışlayırdılar. Elə bu alqışlar, tərifli xoş sözlər, bir də sənətə olan həvəsimiz bizi peşəkar rəqsə gətirdi".

Bidirirk ki, Əvəz Qasımovda texniki hərəkətlər, ayaq barmaqları üstdə oynamaq, barmaqlar üstə dayanmaqla ayaqların görünüşü həmişə dəqiq və əla səviyyədə olurdu. O, əksər kütləvi rəqslərin ən yaxşı solisti kimi tanınırdı. Elə "Nazeləmə" duet-rəqsin də ən mahir ifaçılarından biri Əvəz olub. Burada öz solosunu oynayarkən qızı səhnəyə dəvət edəndən sonra barmaqlar üstündə tərəf-müqabilinə, rəqqasəyə tərəf gedərkən, dərhal tamaşa zalından gürültulu alqışlar gəlirdi.

Ümumiyyətlə, bütün hallarda onun ifasında dönmələr, fırlanmalar və s. dəqiq, çətin hərəkətlər yüksək səviyyədə olurdu. Qeyd olunmalıdır ki, kişi rəqslərində yüngül, rahat, şux oynamaq əsas şərtlərə daxildir və bütün bunlar Əvəzin ifasında var idi. Səhnə rəqslərində məzmun tutumu ilə bərabər lakonilik olmalıdır. Oyun texnikası, dəqiq jestlər, heyrətamiz "tryuk"lar, fərəhli, çoşğun hisslər, sevinc notlarından ibarət partitura olmasa, rəqs öz mükəmməl halını, əhvalını təqdim edə bilməz. Məqalələrimizdə dəfələrlə qeyd etmişik ki, rəqslər səhnə əsərinə çevrilməklə bərabər, milli adət-ənələrimizin, məişətimizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Əvəz Qasımov kimi usta sənət adamlarımız milli rəqslərimizə tamlıq, çoşqunluq bəxş edərək, oynadığı hər bir rəqsi, tapşırılan solonu dərk edərək oynamış, xalq rəqslərimizdən gələn bütün incəlikləri, tələb olunanaları layiqincə yerinə yetirmişlər.

Ə.Qasımov duet-rəqslərdə həmişə öz ömür-gün yoldaşı Nisəxanım Rəhimova - Qasımova ilə tərəf müqabil olaraq tamaşaçı diqqətini cəlb etmiş və dərin sevgi qazanmışdır. "Nazeləmə" rəqsi onların ifasında cazibədar alınırdı. Bu süjetdəki sevgi hissləri, oğlanın bacarıqlı, məğrur bir gənc olması, qızın naz-qəmzəsi, sevgisi və sədaqəti bütün cizgiləri ilə səhnədəcə tamaşaçıların gözləri qarşısında canlanırdı. Əvəz keçmiş SSRİ-nin əksər şəhərlərinə və bir sıra xarici dövlətlərə səfərlərə daim həyat yoldaşı Nisəxanımla birlikdə getmişdir. Onların ifaları xarici ölkələrin tamaşaçılarında maraq oyadır və heyrət yaradırdı. Axı, hər bir işin önündə və daxilində məhəbbət dayanır. Əvəzlə Nisəxanımın saf məhəbbəti onların ifalarına da sirayət edir, yaratdıqları obrazlara inam yaradır və daha canlı edirdi. Onları əslində iş yerləri olan ansambl, ürəkdən sevdikləri Azərbaycan rəqs sənəti biləşdirmişdi. Odur ki, 1979-cu ildə ailə qurublar. Bu səmimi sevgidən dünyaya gətirdkləri övladlara Günay və Tural adı veriblər. Doğru deyirlər ki, əsl məhəbbətdən dünyaya gələn övladlar gözəl, düz qamətli, ağıllı, fəhmli və bilikli olurlar. Əvəzdən yadigar qalan övladlar da belədir.

Əvəz və Nisəxanım müxtəlif xalqlar qarşısında çıxış edərkən rəqslərimiz vasitəsilə həyat və məişətimizi, adət-ənənəmizi, zəngin mədəniyyətimizin ən mühüm cizgilərini əsl sənətsevər insan, həqiqi sənətkar olaraq tərənnüm edirdilər. Bu elə-belə başa gəlimir. Bunlar xalqa, vətənə məhəbbətdən qaynaqla-nır, sənətə sədaqətdən bəhrələnir, böyük istedaddan yoğrulub yapılır.

Əvəz Qasımov 2005-ci il iyun ayının 5-də dünyasını dəyişib.

Qeyd etməliyik ki, Mahnı və Rəqs Ansamblının çıxışlarında bəzən əməkdar artist Kamil Dadaşovla Əvəz Qasımovu səhv salırdılar. Buna səbəb Əvəzin xarici görünüşcə bənzərliyi (saçları, bığları, boy-buxunu), mimikası, gülüşü, hərəkətlərdəki çevikliyi, səhnədə canlanma, tələtüm yaratması, dərhal diqqət cəlb etməsi və bir sıra cizgiləri ilə oxşar olması idi.

Ə.Qasımov Nepal, Mozambik, Qivineya-Bissau, Əlcəzair, Tunis və bir sıra başqa ölkələrdə səfərlərdə olaraq, öz solo oyunu ilə Azərbaycan rəqslərini təmsil edərək hamını heyran qoy-muşdur.

Əhsən RƏHMANLI,
tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktor